**<u>“İxrac qeydi ilə satılan malların ixrac edilməsinə dair məlumat forması”</u>**

**<u>elektron xidmətinin</u>**

**<u>İstifadəçi təlimatı</u>**

**<u>“İxrac qeydi ilə satılan malların ixrac edilməsinə dair məlumat forması”</u>**nın təqdim olunması məqsədilə Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib, aşağıda qeyd olunan identifikasiya vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:

- Asan İmza;

- SİMA İmza;

- SİMA Token.

Elektron kabinetə daxil olduqdan sonra açılan əsas səhifədə **“Ərizələr”** modulu seçilir.




Növbəti mərhələdə “İxrac qeydi ilə satılan malların ixrac edilməsinə dair məlumat forması”nın təqdim olunması ilə bağlı “Yeni ərizə” xanasına müraciətə uyğun məlumat formasının adı yazılaraq axtarış nəticəsində ekranda adı əks olunan forma və yaxud **“Hamısına bax”** düyməsi vasitəsilə müvafiq məlumat forması seçilir.




*Qeyd: Bu məlumat forması ixracatçı tərəfindən malların gömrük rəsmiləşdirilməsini həyata keçirdikdən sonra 1(bir) iş günü müddətində istehsalçıya və Dövlət Vegi Xidmətinə təqdim edilir.*

Əgər istifadəçi tərəfindən daha əvvəl məlumat forması doldurularaq qaralamada saxlanılmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış məlumat formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi əvvəllər qaralaması yaradılmış məlumat forması üzrə davam etmək istədikdə ekrandakı qaralaması olan məlumat forması seçilir və bu zaman aktivləşən **"Davam et"** düyməsi sıxılır. Bu zaman yeni pəncərədə əvvəl doldurulmuş məlumat forması açılır və düzəliş imkanı mümkün olur.




Müvafiq məlumat forması üzrə yeni məlumat formasını yaratmaq istədikdə isə **"Yeni məlumat forması yarat"** düyməsi sıxılır.




Sonra növbəti pəncərədə istehsalçının VÖEN-i və ya adı daxil edilərək aktivləşən “**Davam et”** düyməsi sıxılır.




Açılmış məlumat formasında əks olunan **“Siyahıya qayıt”** düyməsini sıxdıqda ekranda əks olunan pəncərədəki **“İmtina”** düyməsini sıxmaqla məlumat formasının doldurulmasına qaldığı yerdən davam etmək, **“Xeyr, silinsin”** düyməsini sıxmaqla yaradılmış məlumat formasını silmək, **“Bəli, yadda saxlanılsın”** düyməsini sıxmaqla yaradılmış məlumat formasının yadda saxlanılması mümkün olur.



“Xeyr, silinsin” düyməsi seçildikdə açılan “Xidmətin yekunlaşdırılması” pəncərəsindəki müvafiq məlumatlar doldurulduqdan sonra aktivləşən **“Göndər”** düyməsi sıxılır.







Açılan ekranda vergi orqanı və ixracatçı barədə məlumatlar avtomatik olaraq əks etdirilir.




Sonra ixrac qeydi ilə satılan mallar barədə məlumatın daxil edilməsi üçün “İxrac qeydi ilə satılan mallar” bölməsindəki “Əlavə et” düyməsi və ya “Fayl əlavə et” düyməsi sıxılır.




## “Əlavə et” düyməsi vasitəs ilə məlumatın əlavə edilməsi

“Əlavə et” düyməsi sıxıldıqda ekranda “İxrac qeydi ilə satılan malların əlavə edilməsi” pəncərəsi açılır.




İlk olaraq “İxrac qeydi ilə satış barədə elektron-qaimə fakturanın seriyası və nömrəsi” xanası üzrə müvafiq qaimə-faktura seçilir və bu seçim əsasında “İxrac qeydi ilə satış barədə elektron-qaimə fakturanın tarixi” xanası üzrə məlumat avtomatik olaraq əks olunur.




Daha sonra “Gömrük bəyannaməsinin nömrəsi” xanası üzrə bəyannamə nömrəsi seçilir və bu seçim əsasında “Gömrük bəyannaməsinin tarixi” avtomatik əks olunur.






Növbəti mərhələdə "İxrac qeydi ilə satılan malların XİF MN kodu", "İxrac qeydi ilə satılan malların adı", "İxrac qeydi ilə satılan malların ölçü vahidi", "İxrac qeydi ilə satılan malların miqdarı, həcmi" qeyd edilərək "Əlavə et" düyməsi sıxılır və məlumatlar "İxrac qeydi ilə satılan mallar" bölməsində əks olunur.


İxrac qeydi ilə satılan malların əlavə edilməsi
“İxrac qeydi ilə satış barədə” elektron-qaimə faktura”nın seriyası və nömrəsi
*
IQ231100000504
“İxrac qeydi ilə satış barədə” elektron-qaimə faktura”nın tarixi
*
09.11.2023
Gömrük bəyannaməsinin nömrəsi
*
011245000354158
Gömrük bəyannaməsinin tarixi
*
01.01.2025
İxrac qeydi ilə satılan malların XİF MN kodu
*
0102360000
İxrac qeydi ilə satılan malların adı
*
Alma
İxrac qeydi ilə satılan malların ölçü vahidi
*
kq
İxrac qeydi ilə satılan malların miqdarı, həcmi
*
1000
Bağla
Əlavə et


Siyahıya qayıt
İxrac qeydi ilə satılan malların ixrac edilməsinə dair məlumat forması
Yeni
Azərbaycan Respublikasının rəsmi dövlət platforması
Rəsmi vebsaytları necə tanımaq olar ?
Məlumat forması
Məlumat forması ixracatçı tərəfindən malların gömrük rəsmiləşdirilməsini həyata keçirdikdən sonra 1(bir) iş günü müddətində istehsalçıya və Dövlət Vegi Xidmətinə təqdim edilir.
Ümumi müddəalar
İxracatçının vergi orqanının adı
2 saylı Ərazi Vergilər Baş İdarəsi
İxracatçının VÖEN/adı
9900050571 / "CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ
İxracatçının rəhbəri
5N983U3 / MURAD ƏZİMZADƏ FƏRHAD OĞLU
İstehsalçının VÖEN/Adı
4700182441 / "SVET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ
İxrac qeydi ilə satılan mallar
Əlavə et
Fayl əlavə et
Excel faylının nümunəsi
'İxrac qeydi ilə satış barədə' elektron-qaimə fakturanın
Gömrük bəyannaməsinin
İxrac qeydi ilə satılan malların
№
Seriyası və nömrəsi
Tarixi
Nömrəsi
Tarixi
XİF MN kodu
Adı
Ölçü vahidi
Miqdarı, həcmi
Əməliyyatlar
1
IQ231100000504
09.11.2023
011245000354158
01.01.2025
0102360000
Alma
kq
1000
Az
En
Ru
İmzala və göndər
Qaralamada saxla və çıx

Əlavə edilmiş məlumatlar “Əməliyyatlar” sütununda yerləşən redaktə və silmə nişanları vasitəsilə dəyişdirilə və ya silinə bilər.”


İxrac qeydi ilə satılan mallar

Əlavə et | Fayl əlavə et | Excel faylının nümunəsi

| | | 'İxrac qeydi ilə satış barədə' elektron-qaimə fakturanın | | | Gömrük bəyannaməsinin | | İxrac qeydi ilə satılan malların | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| № | ☐ | Seriyası və nömrəsi | Tarixi | Nömrəsi | Tarixi | XİF MN kodu | Adı | Ölçü vahidi | Miqdarı, həcmi | Əməliyyatlar |
| 1 | ☐ | IQ231100000504 | 09.11.2023 | 011245000354158 | 01.01.2025 | 0102360000 | Alma | kq | 1000 | |

## “Fayl əlavə et” düyməsi vasitəs ilə məlumatın əlavə edilməsi

Fayl əlavə edilməklə ixrac qeydi ilə satılan mallar barədə məlumatların daxil edilməsi üçün ilk növbədə **“Excel faylının nümunəsi”** düyməsi vasitəsilə müvafiq nümunə forma endirilir.


Azərbaycan Respublikasının rəsmi dövlət platforması Rəsmi vebsaytları necə tanımaq olar ?

Məlumat forması

Məlumat forması ixracatçı tərəfindən malların gömrük rəsmiləşdirilməsini həyata keçirdikdən sonra 1(bir) iş günü müddətində istehsalçıya və Dövlət Vegi Xidmətinə təqdim edilir.

Ümumi müddəalar

| | |
|---|---|
| İxracatçının vergi orqanının adı | 2 saylı Ərazi Vergilər Baş İdarəsi |
| İxracatçının VÖEN/adı | 9900050571 / "CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ |
| İxracatçının rəhbəri | 5N983U3 / MURAD ƏZİMZADƏ FƏRHAD OĞLU |
| İstehsalçının VÖEN/Adı | 4700182441 / "SVET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ |

İxrac qeydi ilə satılan mallar

Əlavə et | Fayl əlavə et | Excel faylının nümunəsi

| | | 'İxrac qeydi ilə satış barədə' elektron-qaimə fakturanın | | | Gömrük bəyannaməsinin | | İxrac qeydi ilə satılan malların | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| № | ☐ | Seriyası və nömrəsi | Tarixi | Nömrəsi | Tarixi | XİF MN kodu | Adı | Ölçü vahidi | Miqdarı, həcmi | Əməliyyatlar |

| İxrac qeydi ilə satılan malların ixrac edilməsinə dair | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Sıra | "İxrac qeydi ilə satış barədə" elektron- | | Gömrük bəyannaməsinin | | İxrac qeydi ilə satılan malların | | | |
| №-si | tarixi | seriya və nömrəsi | tarixi | nömrəsi | XİF MN kodu | adı | ölçü vahidi | miqdarı, həcmi |
| 1 | | | | | | | | |
| 2 | | | | | | | | |
| 3 | | | | | | | | |
| 4 | | | | | | | | |
| 5 | | | | | | | | |

Sonra nümunə formadakı sütunlara uyğun olaraq müvafiq məlumatlar daxil edilir və fayl kompüterin yaddaşında saxlanılır. Son mərhələdə isə **"Fayl əlavə et"** düyməsi vasitəsilə həmin fayl məlumat formasına əlavə olunur.




Daha sonra aktivləşən "**İmzala və göndər**" düyməsi sıxıldıqdan sonra müvafiq məlumat forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.







"**İmzala və göndər**" düyməsi sıxıldıqda açılan pəncərədə "**İmtina**" düyməsi seçildikdə istifadəçi yenidən əvvəlki pəncərəyə (məlumat formasının doldurulması pəncərəsinə) geri qayıda bilər.



“**İmtina**” düyməsi sıxıldıqdan sonra ekranda əks olunan “**Sil**” düyməsi sıxılmaqla məlumat forması silinə və ya əksinə bu əməliyyatdan imtina edilə bilər.







Məlumat forması imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun məlumat forması və müvafiq formanın göndərilməsi barədə “Bildiriş” əks olunur. Həmin pəncərədə **“Çap”** düyməsi vasitəsi ilə məlumat forması çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **“Bağla”** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.


Ərizə

İxrac qeydi ilə satılan malların ixrac edilməsinə dair məlumat forması

Çap et Endir

Qeydiyyat nömrəsi 2519010000770800 | Qəbul olundu 16.04.2025 saat 17:07

| | |
|---|---|
| İstehsalçının VÖEN/Adı | 4700182441 / "SVET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ |
| İxracatçının VÖEN/adı | 9900050571 / "CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ |
| İxracatçının vergi orqanının adı | İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi |

İxrac qeydi ilə satılan mallar

| | | 'İxrac qeydi ilə satış barədə' elektron-qaimə fakturanın | | | Gömrük bəyannaməsinin | | İxrac qeydi | |
|---|---|---|---|---|---|---|---|---|
| № | ☐ | Seriyası və nömrəsi | Tarixi | Nömrəsi | Tarixi | XİF MN kodu | Adı | Ölçü v |
| 1 | ☐ | IQ231100000504 | 09.11.2023 | 01251000000370 | 11.01.2025 | 0102360000 | alma | aln |

Bağla

İstifadəçi tərəfindən göndərilən “İxrac qeydi ilə satılan malların ixrac edilməsinə dair məlumat forması” onun “Ərizələr” modulundakı “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə məlumat formasının statusu barədə məlumat qeyd olunur.



Eyni zamanda bu hissədən də **“Çap”** düyməsi vasitəsi ilə məlumat forması çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

